*UOT159.9*

***Yeganə Baxış qızı Əskərova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi,*
*psixologiya üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0000-0002-0590-9630*
*https://doi.org/10.69682/arti.2024.91(4).145-148*

# TƏHSİLDƏ PSİXOLOJİ XİDMƏTİN TƏŞKİLİNİN BƏZİ XÜSUSİYYƏTLƏRİ

***Егяна Бахыш гызы Аскерова***
*старший преподаватель*
*Азербайджанского Государственного Педагогического Университета,*
*доктор философии по психологии*

# НЕКОТОРЫЕ ОСОБЕННОСТИ ОРГАНИЗАЦИИ ПСИХОЛОГИЧЕСКОЙ СЛУЖБЫ В ОБРАЗОВАНИИ

***Yegana Bakhish Askarova***
*senior teacher at Azerbaijan State Pedagogical University,*
*doctor of philosophy in psychology*

# SOME FEATURES OF THE ORGANIZATION OF PSYCHOLOGICAL SERVICES IN EDUCATION

**Xülasə.** Məktəblərdə psixoloji xidmət psixologiyanın tətbiqi sahələrindən biridir. Onun gələcək uğurları, hər şeydən öncə, akademik psixologiya ilə qarşılıqlı münasibətlərinin nə qədər səmərəli olmasından asılıdır. Məqalədə ibtidai siniflərdə psixoloji xidmət və onun xüsusiyyətlərinin elmi, tətbiqi və praktik olmaqla 3 istiqaməti göstərilmişdir. Məqalədə qeyd edilir ki, məktəbdə psixoloji xidmət bu üç istiqamətin vəhdətinə, ayrılmaz qarşılıqlı əlaqəsinə əsaslanır. Onları bir-birindən ayırmaq elmi baxımdan birtərəflidir, əməli baxımdan isə zərərlidir.
***Açar sözlər:*** *məktəb, şagird şəxsiyyəti, təlim prosesi, psixi inkişaf, məktəbə hazırlıq, müəllim, valideyn*

**Аннотация.** Психологическая услуга является одной из внедряемых областей в школах. Ее будущие достижения зависят прежде всего от того, насколько эффективны ее взаимодействия с академической психологией. В статье представлены психологические услуги в начальных классах и их научные, прикладные и практические особенности в 3-х направлениях. В статье также отмечается, что психологическая служба в школе основана на единстве этих трех направлений в их неразрывном взаимодействии. Разделение их друг от друга является научно односторонним и вредным на практике.
***Ключевые слова:*** *школа, личность ученика, учебный процесс, психическое развитие, подготовка к школе, учитель, родитель*

**Abstract.** Psychological services is one of the areas of application of psychology. Its features, first of all, depends on how effective its interactions with academic psychology are. In the article three areas of psychological services in elementary schools and its scientific, applied and practical features. İn the article, it is indicated that psychological servicesat schools based on the unity and inseparable interaction of these three areas. Separating them from each other is scientifically one-sided but practically it is harmful. Some features of organizing psychological services for students in primary education
***Keywords:*** *school, student's identity, learning process, mental development, school preparation, teacher, parent*

"Psixoloji xidmət işi dünya təcrübəsində artıq çoxdan tətbiq olunmaqla inkişaf etmiş ölkələrin təhsil sisteminin zəruri tərkib hissəsinə çevrilmişdir. BMT-nin uşaq hüquqları Konvensiyalarına qoşulan ölkələr uşaqların fiziki, intellektual, əxlaqi, mənəvi, sosial inkişafı üçün tələb olunan maksimum şəraitin yaradılmasına çalışırlar. Məlum olduğu kimi, təhsil sistemi yüksək əqli qabiliyyətə malik, milli, mənəvi-psixoloji dəyərlərin daşıyıcıları olan şəxsiyyətlər formalaşdırılmaqla cəmiyyət həyatının humanistləşdirilməsi və demokratikləşdirilməsinə xidmət edir" (1).

Təhsilə psixoloji xidmət ümumilikdə psixoloji xidmətin bir sahəsi olub təhsil prosesi və onun subyektləri ilə bağlı problemlərin həllinə yönəldilir. "Məktəbin tədris və tərbiyə müəssisəsi olduğunu və vətəndaş yetişdirdiyini nəzərə alsaq, psixoloqların təhsil prosesində nə qədər əhəmiyyətli rol oynadığını və onların üzərinə çox çətin, məsuliyyətli iş düşdüyünü deyə bilərik" (2).

Məktəbdə psixoloji xidmətin əsas vəzifəsi - şagirdlərin təlim və tərbiyəsi sahəsindəki çətinlikləri, onların şəxsi və intellektual inkişafındakı qüsurları aradan qaldırmaq, bununla da təlim-tərbiyə sahəsində məktəbdə aparılan işin səmərəliliyini yüksəltmək, sosial cəhətdən fəal yüksək ideya inamına malik şəxsiyyətin formalaşdırılmasında pedaqoji kollektivə köməklik göstərməkdən ibarətdir.

Psixoloji ədəbiyyatda məktəbdə psixoloji xidmət fəaliyyətinin iki istiqaməti qeyd olunur: aktual və perspektiv (S.V. Dubrovina).

Məktəbə psixoloji xidmət fəaliyyətinin aktual istiqaməti şagirdlərin təlim və tərbiyəsindəki bu və digər çətinlikləri, onların davranışlarında, ünsiyyətlərində, şəxsiyyətinin formalaşmasındakı qüsurlarla bağlı bugünkü problemlərin həllinə yönəldilmiş istiqamətdir. Məktəbin gündəlik həyatında həmişə bir sıra problemlərə rast gəlmək olur və müəllim, şagird, valideynlərə konkret kömək göstərməyə ehtiyac duyulur ki, bunlar məktəbdə psixoloji xidmətin bugünkü mühüm vəzifəsi hesab olunur.

Məktəbdə psixoloji xidmət fəaliyyətinin perspektiv istiqaməti hər bir şagirdin inkişafı, cəmiyyətdə yaradıcı həyata onun psixoloji hazırlığının formalaşması məqsədinin həyata keçirilməsinə yönəldilmiş istiqamətdir, psixoloq pedaqoji kollektivin fəaliyyətində əsas psixoloji ideya olan hər bir "şagirdin şəxsiyyətinin ahəngdar inkişafı imkanı" ideyasını daxil edir və onu praktik işdə yönəldən mürəkkəb hisslərdir. Həmin hisslər təlim prosesində elmi axtarışlar, eləcə də incəsənətin müxtəlif növləri üzrə yaradıcı fəaliyyəti zamanı meydana çıxır.

Zehni hisslər insanın zehni, idrak fəaliyyəti prosesində yaranır və onun vasitəsilə törədilir. İnsanın təbiətin sirlərinə vaqif olmaq cəhdi, bilik əldə etmə meyli müxtəlif hisslər doğurur, həmin hisslər bu və ya digər nəzəri və əməli məsələnin həlli ilə əlaqədar olur. Hər hansı bir məsələni həll etmək üçün insan düşündükdə, onda bir sıra zehni hisslər əmələ gəlir. Şübhə, təəccüb, inam, fəhm, yenilik, heyrət hissləri zehni hisslər hesab olunur. Həmin hisslər insanın zehni fəaliyyəti zamanı əmələ gəlməklə onu daha geniş miqyasda axtarışlar aparmağa, obyektiv aləmin qanunauyğunluqlarını kəşf etməyə, cisim və hadisələr arasında az nəzərə çarpan əlaqələri aşkar etməyə təhrik edir.

Təhsilə psixoloji xidmət vahid sistem kimi fəaliyyət göstərən və hər biri özündə konkret fəaliyyət sahələrini birləşdirən 3 istiqaməti əhatə edir: elmi istiqamət; tətbiqi istiqamət; praktik istiqamət. Şagirdlərlə psixoloji iş bir neçə istiqamətdə - psixoprofilaktik, konsultativ, diaqnostik, korreksiya işi və s. üzrə aparılmalıdır. İlk növbədə, psixoprofilaktik işlər sayəsində təlim prosesində şagird şəxsiyyətinin formalaşmasında, onun davranışında və psixi inkişafında baş verə biləcək mənfi halları üzə çıxarmağa imkan yaranır və qarşını almaq üçün müəyyən tədbirlər görülür. Ortaya çıxan problemlər müəllim və valideynlərlə müzakirə olunur. Şagirdlə, valideynlə və müəllimlərlə və zəruri hallarda digərləri ilə psixoloji konsultasiyalar aparılır. Konsultasiya zamanı şagirdin təlimə marağının olmamasının, neqativ davranışının, həmyaşıdları və müəllimləri ilə şəxsiyyətarası münasibətlərdəki problemlərinin və s. səbəbləri araşdırılır. Bu zaman uşağın yaş və fərdi-psixoloji xüsusiyyətləri, ailədaxili münasibətləri nəzərə alınmalıdır. Diaqnostik iş şagirdin fərdi-psixoloji xüsusiyyətlərini, potensial imkanlarını, qabiliyyətlərini, təlimə hazırlıq səviyyəsini üzə çıxarmağa imkan verir. Bu da şagirdlə aparılacaq iş üçün tutarlı informasiya verir. Problemlər müəyyən edildikdən sonra korreksiya işi aparıla bilər. Sadalanan bütün bu işlərin görülməsi peşəkar mü-

təxəssislər sayəsində mümkündür. Günün aktual mövzularından biri də məktəbdə psixoloji xidmətin səviyyəsidir. Hər bir məktəbdə psixoloji xidmətin olması mütləqdir. Çünki, inkişaf dövrünün bəzi böhranlı mərhələləri var ki, bunlar məhz məktəb illərinə təsadüf edir. Odur ki, şagirdlərin qarşısına çıxan problemlərin məktəb psixoloqunun köməyilə düzgün diaqnostika və korreksiya edilməsinə böyük ehtiyac duyulur. Ancaq ölkənin orta təhsil ocaqlarında məktəb psixoloqunun yerinə yetirməli olduğu vəzifəyə o qədər də önəm verilmir. Halbuki, uşaqların təlim və tərbiyə prosesinə məktəb yaşlarından başlayaraq müəllimlər və valideynlərlə birgə, psixoloqlar da nəzarət etməlidir. Məktəb psixoloqunu işi məktəbəqədər yaşlı uşağın məktəbə hazırlığını müəyyən etmə mərhələsindən başlayır.

Psixoloqun şagirdlərlə iş aparan zaman ən çox problemlə qarşılaşdığı yaş dövrü – kiçik məktəbli yaş dövrüdür. Bu dövr 6-10 yaşlarını əhatə edir və böhranlı dövr kimi yadda qalır. "Uşağın məktəbə daxil olması onun həyat və fəaliyyətində ciddi dəyişikliklər əmələ gətirməklə bərabər, məktəblinin cəmiyyətdəki sosial mövqeyini, öz yaşıdları və yaşlılarla ünsiyyət formaları və qarşılıqlı münasibətlərinin də dəyişməsini tələb edir"(3,s. 240). Bu dövrdə şagirdlərdə yeni xüsusiyyətlər formalaşır, qızlar və oğlanlar baş verən proseslərə daha aqressiv reaksiya göstərirlər. Şagirdlərin bu aqressiv davranış reaksiyaları mütləq psixoloqlar tərəfindən korreksiya olunmalıdır. Əgər onlarla düzgün iş aparılarsa, bu xüsusiyyətlər tədricən aradan qalxır, əks halda isə aqressiv davranış reaksiyaları xarakter xüsusiyyəti kimi formalaşa bilər. Bundan başqa, məktəb psixoloqu həmçinin təlimdə geri qalan və intizamsız şagirdlərlə diaqnostik-korreksiya işi aparılmasında, şagirdlərin təlim-tərbiyə prosesinin normal gedişinə mane olan intellektual, şəxsi və emosional-iradi xüsusiyyətlərini diaqnostika edilməsində, uşaqların təlim-tərbiyəsinin psixoloji problemləri, hafizəsinin, təfəkkürünün, xarakterinin və s. inkişafı sahəsində ciddi işlər aparılmasında yaxından iştirak edir. "Uşağın məktəbə fiziki cəhətdən sağlam gəlməsi çox mühüm amildir.

Bununla belə, məktəbdəki təlim uğurları onun psixoloji hazırlıq səviyyəsi ilə də sıx şəkildə bağlıdır"(4, s.245). Bütün bunları nəzərə aldıqda bəlli olur ki, məktəblərdə psixoloq fəaliyyətinə böyük ehtiyac var. Şagirdlərin təlim-tərbiyəsində məktəb rəhbərliyi, müəllimlər və valideynlərlə birgə psixoloqların da iştirak etməsi mühüm şərtdir. Fərdi pedaqoji sahədən fərqli olaraq, təhsilin təşkili sahəsində praktik psixologiyadan istifadə daha mühümdür. Çünki hər bir müəllim öz işini psixoloqun dəstəyilə qurmalıdır. Məktəb psixoloqunun işinin əsas qayəsi fərdi yanaşma əsasında problemin həllinə nail olmaq üçün yaxşı tədqiqatçı olmaq, psixoloji üsul və vasitələri sərbəst həyata keçirməyi bacarmaqdır. Əlbəttə, bu sahədə şablon psixo-diaqnostik vasitələrdən və testlərdən istifadə olunması problemlərin yüksək səviyyədə həllinə maneçilik törədə bilər, belə olan təqdirdə psixoloq öz peşəsinə həm peşəkar – müşahidəçi, həm də ixtiraçı-tədqiqatçı kimi yanaşmalı, bu istiqamətdə qanunauyğunluqları bilməklə yanaşı, lazım gələrsə, həllində çətinlik törədən məsələlərdə yeni olanı görə bilmək qabiliyyətini peşəkarcasına nümayiş etdirməkdən çəkinməməlidir.

Dərs yükü ruhi sarsıntılara yol açır. Təhsil üzrə ekspert, prof. Ə.Ə. Ağayev də düşünür ki, məktəblərdə xüsusən ibtidai siniflərdə psixoloji xidmət mütləq olmalıdır. Prof. Ə.Ə. Ağayevin fikrincə, "Ekoloji problemlərin insan psixologiyasına təsiri böyükdür. Həkimlərin məlumatına görə, yeni doğulan uşaqların bəlkə də 80 faizi qüsurlu dünyaya gəlir. Bundan əlavə, həmin uşaqlarda müəyyən ruhi, hissi çatışmazlıqlar da olur. Demək həyati tələb kimi psixoloji xidmətə ehtiyac yaranır. Harada ünsiyyət və münasibət varsa, orada davranışın səviyyəsi, tərzi meydana çıxır. Nəticədə psixoloji yanaşmalara xüsusi ehtiyac yaranır. Ə. Ağayev hesab edir ki, təlim prosesinin çətinlikləri, kurikulum təhsil proqramları üzrə hazırlanan dərsliklərdə uşaqların fizioloji, psixi inkişaflarını nəzərə almaq lazımdır: "Dərsliklər olduqca ağırdır. Nəinki şagirdlər, hətta, bəzi müəllimlər də dərsliklərdəki bəzi tapşırıqları yerinə yetirə bilmirlər. Xüsusən, riyaziyyat fənni üzrə. Bu çətinliklər ruhi sarsıntılara gətirib çıxarır. Birinci sinifdən dərsliklər ağır olduğu üçün uşaq gərginlik keçirir. Bütün bunların qarşısını almaq üçün psixoloji xidmətin böyük əhəmiyyəti var". Hazırda məktəblərimizdə psixoloji xidmətə və psixoloq mütəxəssislərə çox ehtiyac var. Həmçinin bəzi valideynlərin də «Mənim uşağımı niyə izləyirsən?» fikirləri də psixoloqun işinə mane olur. Bu gün məktəbdə

çalışmaq çox çətindir. Orada müxtəlif yaş qrupları üzrə şagirdlər təhsil alır. Keçid dövründən sonra şagirdlərlə, xüsusən oğlan uşaqları ilə işləmək çox mürəkkəbdir». Məktəbdə psixoloji xidmət işinin səviyyəsi inkişafda olan prosesdir. ”Psixoloji xidmət işi müxtəlif istiqamətlərdə aparıldığından onların hər birinə özünəməxsus üsulla yanaşılır. Keyfiyyətli və səmərəli tətbiq edilmiş metod öz nəticələrinə görə seçilir” (5, s. 55).

Psixoloq şagirdlərin intellektual və şəxsi emosional inkişafının fərdi, psixoloji xüsusiyyətlərini öyrənir, siniflərdə və qruplarda sosial-psixoloji mühiti tədqiq edir. Uşaqların məktəbdə psixoloji cəhətdən hazırlığını araşdırmaqla onların yaş və inkişaf səviyyələrini müəyyən edir. O cümlədən, emosional pozuntuları olan, pis davranışlara meyl edən və istedadlı uşaqları üzə çıxararaq onlarla iş aparır. Günün aktual mövzularından biri də məktəbdə psixoloji xidmətin səviyyəsidir. Hər bir məktəbdə psixoloji xidmətin olması mütləqdir. Çünki, inkişaf dövrünün bəzi böhranlı mərhələləri var ki, bunlar məhz məktəb illərinə təsadüf edir. Məktəb psixoloqunu işi məktəbəqədər yaşlı uşağın məktəbə hazırlığını müəyyən etmə mərhələsindən başlayır. Odur ki, şagirdlərin qarşısına çıxan problemlərin məktəb psixoloqunun köməyilə düzgün diaqnostika və korreksiya edilməsinə böyük ehtiyac duyulur. Ancaq ölkənin orta təhsil ocaqlarında məktəb psixoloqunun yerinə yetirməli olduğu vəzifəyə o qədər də önəm verilmir. Halbuki, uşaqların təlim və tərbiyə prosesinə məktəb yaşlarından başlayaraq müəllimlər və valideynlərlə birgə, psixoloqlar da nəzarət etməlidir. ”Məktəbdə praktik psixoloqun işi elə qurulmalıdır ki, məktəb direktorları və müəllimlərlə bahəm, valideyn və şagirdlər də ona inansınlar, etibarla yanaşsınlar, ağıllı və təsirli məsləhətlərindən faydalansınlar. Praktik psixologiyanın praktik effektləri olmalıdır. Onun məktəbdə statusu ancaq bu effektlərlə müəyyən edilə bilər” (6, s.346).

**Problemin aktuallığı.** Psixoloqun şagirdlərlə iş aparan zaman ən çox problemlə qarşılaşdığı yaş dövrü - kiçik məktəbli yaş dövrüdür. Bu dövr 6-10 (I-IV sinif) yaşlarını əhatə edir və böhranlı dövr kimi yadda qalır. Uşağın məktəbə daxil olması onun həyat və fəaliyyətində ciddi dəyişikliklər əmələ gətirməklə bərabər, məktəblinin cəmiyyətdəki sosial mövqeyini, öz yaşıdları ilə bərabər yaşlılarla ünsiyyət formaları və qarşılıqlı münasibətlərinin də dəyişməsini tələb edir, beləliklə mövzunun aktuallığına diqqət çəkir.

**Problemin elmi yeniliyi.** Məqalədə ibtidai təhsildə şagirdlərə psixoloji xidmətin təşkilinin aktual istiqaməti, şagirdlərin təlim-tərbiyəsindəki bu və digər çətinlikləri, onların davranışlarında, ünsiyyətlərində, şəxsiyyətinin formalaşmasındakı qüsurlarla bağlı bugünkü problemlərin həlli istiqaməti araşdırılmışdır.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** İbtidai təhsildə şagirdlərə psixoloji xidmətin təşkilinin təkmilləşməsində və yeni optimal variantların ortaya qoyulmasında istifadə edilə bilər.

**Ədəbiyyat**:


1. Əliyev, R.İ. http://aztehsil.com/psixoloq/203-thsild-psixoloji-xidmt-blmsi.html
2. kayzen.az/blog/pedaqoq/1769/psixoloji-xidmət-və-onun-təşkili.html
3. http://www.muallim.edu.az/www.old/arxiv/2015/05/04.htm
4. Qədirov, Ə.Ə. Yaş psixologiyası. -Bakı: Maarif, -2002, -386 s.
5. Çələbiyev, N.Z. Uşaq psixologiyası. -Bakı: 2005, -343s.
6. Əmrahlı, L.Ş, Psixoloji xidmətin əsasları. -Bakı:, 2008. -267s
7. Əlizadə, Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. -Bakı: Ozan, -1998, -367 s.


**E-mail:** y.askerova@inbox. ru
**Redaksiyaya daxil olub:** 24.06.2024